

Salman Məmmədoğlu

# SEYİD VƏ FATİMƏ

ROMAN
I hissə

## I FƏSİL

## YENİ HƏYATA APARAN YOLLAR

*(Əvvəli ötən sayımızda)*

Gecə düşdüyündən göz-gözü görmür, vəhşi heyvanların səsləri vahimə, qorxu hisslərini bir qədər də artırırdı. Artıq belə gecələrə alışmış müsafir çox gənc olmasına baxmayaraq qorxunu özündən uzaqlaşdırmağa çalışır, əlindəki nizədən möhkəm yapışaraq hər an baş verəcək təhlükəni dəf etməyə hazırlaşırdı. Təhlükə sovuşandan sonra yavaş-yavaş sakitləşir, öz ölkəsində baş verən hadisələri bir-bir yadına salıb gözləri önündə canlandırmağa çalışırdı...

Ailənin ən kiçik övladı olduğundan atası, anası, bacı-qardaşları da onu çox sevir, əzizləyirdilər. Yaşıdlarından həm əqli, həm fiziki cəhətdən fərqlənirdi, çox ağıllı, dərrakəli, güclü olmasına görə gələcəyinin parlaq olacağını deyirdilər.

Seyid bütün elmlərə maraq göstərir, daha çox tarix, nücum, ədəbiyyat, təbiət haqqında biliklərini artırmağa vaxt ayırırdı. Müəllimləri onun həddindən artıq çalışqan, fitri istedada malik olduğuna, çoxlu kitab oxuduğuna diqqət çəkir, dövrünün ən tanınmış alimlərindən biri olacağını söyləyirdilər. Seyid oxuduqlarını həyatda tapmağa səy edir, oxuduğu kitablardan dünyada baş verən hadisələri, dünyada yaşayan xalqların keçmişi, bu günü haqqındakı məlumatları dərindən öyrənməyə çalışırdı. İnsanların qeyri-bərabər yaşaması, varlı-kasıb təbəqəsinə bölünməsi, varlıların zəif və kasıblara zülm etməsi, torpaqların, ölkələrin istila edilib viranə qoyulması onu daha çox düşündürür, ədalətsizlik, xəyanətkarlıq, satqınlıq kimi pis əməllərlə barışa bilmirdi. Yoldaşlarından dəfələrlə güclü olsa da, heç vaxt lovğalanmır, bildiklərini dostlarına öyrədir, nəcibliyi, alicənab və fədakarlığı ilə hamının sevimlisinə çevrilmişdi, onun istedadlı sərkərdə, hətta sarayda birinci vəzir ola biləcəyi barədə fikir söyləyənlər də var idi.

Seyidin atası şahın ordu sərkərdəsi vəzifəsində qulluq edirdi, anası isə varlıların evində pal-paltar yuyur, ev-eşik süpürür, digər işlər görməklə balalarına çörək pulu qazanırdı. Atası oğlunu mədrəsəyə qoyub savadlı bir şəxsiyyət kimi yetişməsini arzulayırdı:

- Müharibələrdən bezmişəm, insanların mənəvi saflığa, paklığa ehtiyacı var, - deyirdi. Eyni zamanda, boş vaxtlarında Seyidə qılınc çalmağı, ox atmağı, döyüş meydanında vuruşmaq, müdafiə olunmaq sirlərini öyrədirdi. Seyid istedadlı olduğumdan həm mədrəsədə yaxşı oxuyur, həm də atasından öyrəndiyi fəndlər hesabına əsl cəngavərə çevrilirdi...

Bir dəfə Seyidin atası evə çox yorğun qayıtmışdı, zəhmli baxışlarındakı pərişanlıq və kədər ifadəsini aydınca seçmək olurdu. O, ailəsini başına yığıb danışmağa başladı:

- Düşmənlər bizim ölkəmizdən əl çəkmək istəmirlər, talançılıq, qəsbkarlıq, insanları əsir alıb qul etmək üçün sərhədlərimizə böyük qoşunlar cəmləşdiriblər. Ordumuz düşməndən sayca qat-qat azdır, onların odlu silahları döyüş meydanında üstünlüyə malik olacaqlarından xəbər verir. Biz sona qədər vuruşacağıq, ancaq...

O susdu, Seyidin başını sığallayaraq davam etdi:

-Babam atama, atam da mənə danışıb. Bir dəfə uzaq səfərə çıxıblar. Bir neçə gün yol gediblər, nəhayət, insan ayağı dəyməyən torpağa qədəm qoyublar. Bu yerlərdə təmiz hava, səfalı düzənlər, sulu çaylar, ceyran, cüyür və müxtəlif quşlarla zəngin olan cənnətməkan bir diyara rast gəliblər. Bir tərəfi dağlar, bir tərəfi dəniz olan bu yerin yaşıl meşələri, ucsuz-bucaqsız düzənləri göz oxşayır...

Seyid səhər yuxudan ayılanda atasını görmədi, o çıxıb getmişdi... Bu minvalla bir neçə gün keçmişdi, nədənsə hamı narahat görünür, bir çoxu yır-yığış edib köçür, başqalarına da meşələrə, dağlara çəkilməyi məsləhət görürdülər. Seyidin anası Kübra xanım da övladlarına tezliklə evlərini tərk edəcəklərini, bunun üçün vacib olan əşyaları yığmağı tapşırmışdı. Hamı narahat, səksəkədə idi...

Çaparlar insanları tələsməyə, buradan uzaqlaşmağa çağırırdılar. Birdən-birə uzaqlardan dağı-daşı silkələyən gurultu səsləri eşidilməyə başladı, insanlar vahiməyə düşdülər, çaxnaşma içində "allah, özün rəhm et" sədaları aləmi başına götürdü. Çaparların: "qaçın, canınızı qurtarın, ordumuz məğlub oldu, düşmən gəlir" - çağırışları hamını sarsıtdı, başqaları kimi, Seyidin də ürəyinə qorxu saldı. Əvvəlcə, nə edəcəyini bilmədi, qaçıb canlarını qurtarmağa çalışan insanlara tamaşa etdi. Sanki birdənbirə yuxudan ayıldı, evlərinə tərəf qaçdı. Qonşularının evlərini tərk etdiklərini gördü. Əlinə düşənləri kimi eşşəyə, kimi atına yükləyir, kimi də uşaqlarını başına cəm edib qaçırdı...

O, evə yetişəndə anası ağlaya-ağlaya: "Tez ol, ay bala, harada qalmışdın, səni gözləyirdik" - deyə oğlunu qucaqlayıb öpdü "Qardaşların düşmənlə vuruşmağa getdlər, sən isə bizi-bacılarını xilas etməlisən..." Seyid tövlədəki atları bayıra çəkdi, anasını qaldırıb öz atına əyləşdirdi, götürə bildikləri xırda-para əşyaları o biri ata yüklədi. Xurcunlarda paltarlarla yanaşı, Seyidin kitabları da yüklənmişdi. Bir azdan onlar da evlərini tərk edənlərə qoşuldular. Ağlaşma, hönkürtü səsləri dəliqanlı cavanları özündən çıxarmağa başladı, silahlanmış yeniyetmələr əllərindəki qılıncları oynadaraq, düşmənlərə nifrətlərini ifadə edirdilər, geri çəkilməyəcəklərini bildirirdilər. Lakin indi geri çəkilmək, uşaq və qocaları, xəstələri təhlükəsiz yerlərə çatdırmaq, mağara və dağlarda yerləşdirmək əmri verilmişdi, düşmənin həmləsini dəf etmək, müdafiə səddi qurmaq yalnız bu tapşırıqdan sonraya qalmışdı. Xəstələr, qocalar, uşaq və qadınlar arabalara yerləşdirilir, bələdçilərə təhvil verilib yola salınırdı. Əli silah tuta bilən hər kəs geri qayıdıb düşmənlə qarşı-qarşıya vuruşmağa can atırdı. Müxtəlif istiqamətlərə səpələnmiş insanlar yalnız meşələrə, dağlara sığınırdılar. Seyid bu qədər insanın nə üçün, hara, niyə qaçdığının səbəbini anlamırdı. Doğma torpaqlardan, evlərindən belə tələm-tələsik, vahimə içində, qorxaqcasına baş götürüb qaçmaq - alçalmaq, ata ocağını düşmənə təslim etmək qəbahət deyilmi?! Onları qovanlar, yurd-yuvalarından didərgin salanlar kimdir, nə istəyirlər? Anasının, bacılarının göz yaşları qəlbinə dağ boyda ağırlıq salmışdı, düşmənə olan sonsuz nifrətini coşdurmuşdu, döyüş meydanına atılıb qisas hissi ilə yaşayırdı. İllərlə boya-başa çatdığı, gəzdiyi, sevdiyi doğma yerləri tərk etmək ona çox ağır gəlirdi. Uşaqlıq illərinin qayğısız anları yadına düşdü, kövrəldi. İndi atası dardadır, o isə qaçır. Yox, belə asanlıqla düşmənə təslim olmaq, vuruşsuz döyüş meydanını tərk etmək Seyid kimi vətənpərvər insanlara ölümdən betər idi. O, ana və bacılarını digər qaçqınlarla etibarlı yerlərdə gizlətdikdən sonra atına suvar oldu, özü kimi cəsur döyüşçülərlə birlikdə döyüşə hazırlaşdı. Yüksəkliklərdən döyüş meydanı əlin içi kimi aydın görünürdü, təcrübəli döyüşçülər qüvvələr nisbətinin qeyri-bərabər olmasını nəzərə alıb, açıq döyüşə girməməyi məsləhət görürdülər. Artıq hava qaralmağa, qaranlıq pərdəsini yer üzünə çəkməyə başlamışdı, sanki qanlı döyüş meydanında qan içində çabalayan başları, əlləri kəsilmiş bədənləri gizlətməyə tələsirdi. Gördüyü döyüş meydanı atasının dediklərini tamamilə sübut edirdi, yaxşı silahlanmış, dəmir paltarlı, başlarını dəmir dəbilqə altında gizlətmiş, sifətləri görünməyən yadellilər heç kəsə rəhm etmirdilər, qarşılarında vuruşan, müqavimət göstərən hər bir kəsi öldürür, başını kəsir, təslim olanlara belə aman vermirdilər. Ara-sıra atlar kişnəyir, fəryad səsləri ərşə dirənirdi. Qaçan, geri çəkilməkdə olan döyüşçüləri mühasirəyə salıb məhv etmək istədikləri aydın görünürdü. Seyid və dostları düşmənin mühasirəsini yarıb qaçanlara kömək etmək məqsədilə gizləndikləri mövqelərdən oxlar yağdırmağa başladılar. Yüzə qədər döyüşçünün atdığı oxlar düşmənin zirehli geyiminə dəyib geri qayıdır, çox vaxt isə atlara və atlıların örtülməyən bədənlərinə sancılırdı.

*(Davamı gələn sayımızda)*






# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ SƏFİRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən Hakimiyyet.info.az-a bildirilib ki, oktyabrın 26-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüşüb.

Görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdəki mehriban dostluq münasibətlərindən məmnunluqla bəhs edilib, həmçinin gömrük sahəsindəki işgüzar və səmərəli əməkdaşlığın bunun bariz nümunəsi olduğu vurğulanıb.

Qeyd olunub ki, gömrük xidmətləri nümayəndələrinin qarşılıqlı səfərləri əlaqələrin daha da gücləndirilməsi üçün yeni imkanlar yaradıb, iki ölkənin gömrük orqanları arasındakı əməkdaşlığın inkişafı üçün hüquqi bazanın mövcudluğu əlaqələrin davamlılığının təmin olunmasına münbit şərait yaradır.

# "MUĞAN BANK"A MƏXSUS ƏMƏKHAQQI KARTLARINDAKI PULLARIN AQİBƏTİ NECƏ OLACAQ?

Hakimiyyet.info.az xəbər verir ki, Mərkəzi Bankın qərarı ilə lisenziyası ləğv edilən "Muğan Bank"da olan əməkhaqqı və plastik kartlardakı pulların taleyi ilə bağlı ünvanlanan çoxsaylı suallar ilə əlaqədar qeyd etmək istərdik ki, o vəsaitlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən kompensasiya edilməlidir. Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov sosial şəbəkə hesabında qeyd edib.




O qeyd edib ki, qanunvericiliyə əsasən, həmin kartlarda olan pullar dövlət tərəfindən vətəndaşlara ödənilməlidir. Fiziki şəxslərin cari hesablarındakı vəsaitlər də qorunan pullardır. Bu zaman da faizli əmanətlər də olduğu kimi 100 min manat maksimum kompensasiya ediləcək məbləğdir.

Fiziki şəxslərin kartlarında olan vəsaitlər ləğvedici təyin edildikdən sonra qanunvericiliyə uyğun olaraq qorunan əmanət kimi vətəndaşlara ödənilir. Bunun üçün ləğvedici tərəfindən agent bank seçilir və həmin vəsaitlərin qaytarılması müəyyən edilmiş qaydada həyata keçirilir. Kompensasiyaların ödənilməsi prosesinə növbəti ayın sonlarında start veriləcəyi gözlənilir - deyə V.Bayramov əlavə edib. Xatırladaq ki, cari ay ərzində "Muğan Bank"ın lisenziyası ləğv edildi. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu, 16.1.18-ci, 57-ci və 61.1-ci maddələrinə əsasən "Muğan Bank" ASC-nin lisenziyası 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilib, banka müvəqqəti inzibatçı təyin edilib və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub.

# QAREGİN ƏSL ERMƏNİ FAŞİSTİ OLUB

## Гарегин Нжде: миф и реальность

***Oxucularımıza təqdim etdiyimiz bu kitabın müəllifi rusiyalı araşdırmaçı publisist Modest Kolerovdur. Onun ermənilərin "milli qəhrəmanı", faşist xislətli Njde Qaragenin fəaliyyətində yeni arxiv sənədlərin aşkar edilərək kitab şəklində dünya ictimaiyyətinə çatdırması bir daha sübut edir ki, faşizmə barışmayan dünya erməni xislətini də tanımalı, mübarizə sürətlə davam etməlidir.***

*(Əvvəli ötən sayımızda)*


Модест Колеров

Был ли Нжде признан в СССР гитлеровцем? Да! Архивные материалы

Протокол допроса 12 октября 1944

[Берлин, октябрь 1942:]
«В заключение я спросил: чем мы, армяне, можем помочь Германии в этой войне. Я предложил... открыть в Берлине школу для армян, выпускников которой мы и выделим с тем, чтобы немцы их подготовили и использовали по своему усмотрению.
Друм ухватился за это предложение и поручил мне выделить в Болгарии группу армян — примерно 30 человек, направить их в Берлин, где их подготовят для переброски в диверсионных

Повестка к заседанию Особого Совещания при Министре Государственной Безопасности СССР. Страница 1

и других целях в Советскую Армению, когда немецкие войска подойдут к границам Армении, а также помощи немцам изнутри для скорейшего освобождения Армении от большевистских войск.

В этом письме Нжде излагает самые важные главы из своей политической биографии, снова подчёркивая исключительно антитурецкое содержание своей борьбы. "Я был, - пишет Нжде, - единственным армянским политическим деятелем, периодически подвергавшимся нападкам турецкой прессы". Конечно, всегда, везде, во всём он - единственный, исключительный и неповторимый. Так, Нжде вновь и вновь напоминает про решение "по-рыцарски" остаться в Софии: "Я остался в Софии, совершив рыцарско-патриотический шаг...". Затем Нжде объясняет, сколь несправедливо удерживать его в тюрьме, того человека, который свою искреннюю дружбу предложил советской стране. Своё письмо Нжде начинает следующим образом: "Гражданин президент! По отношению ко мне допущено вопиющее беззаконие, не имеющее прецедента в истории судопроизводства народов". Неслыханное, невиданное, не имеющее прецедента, такое только с ним - "рыцарем" - могло произойти, потому что его "судьба особенная", он повсюду, во всём, во все времена, в истории всех народов - единственный, неподражаемый, беспрецедентный, исключительный, бесподобный... Однако наш самовлюблённый и эгоистичный герой, как обычно, немного переоценивает всемирно-историческое значение своей личности. Его судьба всё-таки не столь уж необыкновенна, если вспомнить узника острова святой Елены по имени Наполеон. Вспомним несколько отрывков из писем и автобиографии Нжде как образцы самовосхваления и воскурения самому себе фимиама, доходящие до эгоизма:

"Должен ли я остаться (в Софии. - А. А.)- Да, отвечал мне мой внутренний голос патриота... Никаких рыцарских поступков в мире не было бы совершено, если бы не было такого убеждения, что есть люди, которые восхищаются рыцарскими и геройскими подвигами. Совершая своё отважное деяние, герой знает заранее, что даже враги должны его уважать".

Ну, а кто же достоин восхищения и поклонения за свои "рыцарские и геройские подвиги", кажется, нетрудно догадаться.

"...Без Каракилисского сражения не существовало бы ни сегодняшней Армении, ни живущих там армян... Героическое трёхдневное Каракилисское сражение спасло армян Араратской долины от полного уничтожения и явилось основой для армянского государства", вероятно, так оно и есть, но как это произошло, каким чудом повезло армянскому народу, посмотрим. "В конце мая 1918-го я руководил Каракилисским сражением...", - пишет Нжде. Вот что, ну конечно, потому что там был он - рыцарь, богом избранный, неповторимый и единственный, и ничего, что он свою "героическую роль" немного преувеличивает... Нжде перечисляет свои подвиги далее.

"С малочисленной силой я поспешил к осаждённому Кохбу и спас армян этого района...".

"Я вёл бои под Аладжой, благодаря этому отступающие армянские воинские части... без потерь дошли до Александрополя...".

"Осенью 1919-го я спас второй армянский полк, который оказался в окружении...".

"Во второй половине 1919-го я перешёл в Сюник, чтобы помочь Гохтану... Область и её население были спасены...".

"Потом я посвятил себя делу защиты и спасения от уничтожения армянского населения Капана и Аревика...".

"Все забыли, что только благодаря моим усилиям избежали судьбы евреев...".

Повсюду он - везде поспевающий герой и рыцарь... он идёт, он побеждает, он спасает!

"История человечества пока ещё не знает такого случая, чтобы человек находился в таком положении, в каком нахожусь я...".

"По отношению ко мне допущено вопиющее беззаконие, не имеющее прецедента в истории судопроизводства народов".

"Верю, что на моё рыцарство будет отвечено рыцарством".

"Я остался в Софии, совершив рыцарско?патриотический шаг...".

"Не покинув Софию, я продемонстрировал возвышенный патриотизм... не думаю, что найдутся многие, кто поступил бы так же, как поступил я...".

"Я.., я.., я...", неповторимый, необыкновенный, единственный, исключительный, бесподобный... в истории народов.

Однако снова вернёмся к письму... Нжде недоволен жестоким обращением следователей, порой даже чрезмерно легкомысленно. Его лишали сна и отдыха, допросы проводили в ночное время и продолжали их до самого рассвета. Не позволяли носить очки, для того чтобы следить, спит он или бодрствует. Забрали тетради, в которых были его философские размышления. Мы уже говорили, что Нжде настойчиво и последовательно отрицал свою связь с убийствами, совершёнными в Зангезуре, продолжая утверждать, что всё это произошло по приказу руководителей Дашнакцутюн. А вот "бериевские клеветники" - следователи - искажали смысл его слов, "показывали один документ, а подписывать давали совершенно другой...". Каким образом и откуда он это узнал, может, следователи обсуждали с ним свои "подлоги", признавались затем в этом, давали отчёт, мол, смотри, что мы сделали? Неужели документы только "показывали", ведь допрашиваемый их читал и под прочитанным собственноручно подтверждал: "прочитано мной, с моих слов записано верно". Так было в тех случаях, когда целью и задачей было любой ценой вырвать "признание" у допрашиваемого, и для достижения этого заключённый периодически подвергался пыткам, почти до потери сознания, когда для него становилось всё равно, только бы закончился этот кошмар. Такие вещи происходили, конечно, но не в случае с Нжде, которого чекисты никогда даже пальцем не тронули, так как такой необходимости не было, тем более что Нжде отрицал своё соучастие в зангезурских убийствах и мы видим это "отрицание" в его показаниях. Следовательно, что и почему может быть искажено? Однако Нжде так и не приводит никаких фактов "искажения смысла его слов" ни в этом письме, ни в других записях, только непрестанно лжёт и лжёт. Затем Нжде продолжает рассказывать, что следователи основательно подменили всю суть защиты Зангезура и хронологию событий, а его битва была только и только с турками, которые, (это тоже интересно, посмотрим, что он пишет), "...пользуясь отсутствием в Закавказье русских, пробовали осуществить свою мечту о пантюркизме". Ну что, выясняется, что в 1920- 1921 гг. "было отсутствие русских" в Закавказье, Красная Армия не имеет никакого отношения к советизации Азербайджана, так как "отсутствовала", а его борьба, естественно, не могла быть против "отсутствующей" армии. Это не что иное, как ещё один пример бессмысленного и смешного вранья, однако же кого он обманывал? Вероятно, забыл, что немногим ранее в письме Сталину жаловался на глупую ошибку командующего именно этой "отсутствующей" армии? В те "старые добрые времена", до ареста, там - в безопасной и обеспеченной диаспоре, наш "бесстрашный хуступский рыцарь" все возможные газеты заполонил рядом своих потрясающих статей о своих "подвигах", о том, "Почему я поднял оружие против советских войск", а теперь - "они отсутствовали". Может быть, и письмо Ворошилову "подделали"? Нет, это уже не КГБ, а всецело творческое объединение, не говорите КГБ, говорите - Парнас.

*(Davamı gələn sayımızda)*